# QUBA ŞƏHƏRİNİN YÜKSƏK DAĞLIQ KƏNDİ OLAN XINALIĞIN MEMARLIĞI

**Balakişiyev İlqar Mövlud oğlu-** m.ü.f.e.n., baş müəllim, Memarlıq konstruksiyaları və abidələrin bərpası kafedrası, AzMİU, ilqar-1980@mail.ru

**Xülasə**. Söz yox ki, müəllifin məqalədə bu mövzuya müraciət etməsi, Xınalığın memarlığının elmi cəhətdən dərindən öyrənmək istəyi onun doğma Azərbaycanmızın Şimal qapısı sayılan Quba torpağı ilə sıx bağlı olması və elinə,obasına olan hədsiz məhəbbətidir. Yəqin ki, elə bu sevgi onu ata-babasının doğulub boya başa çatdığı vətənimizin füsunkar guşəsi olan Qubanın və onun ətrafında olan şimal- şərq bölgələrinin tarixini və memarlıq abidələrini öyrənməyə sövq etmişdir. Xınalıq kəndinin qədim tarixi var. Xınalıq ilk dəfə bura düşən insanı öz gözəl və təkrar olunmaz memarlığı və təbiəti ilə heyran edir. Bu gün kəndin memarlıq abidələrinin ən vacib və çətin problemi dini abidələrin eləcə də yaşayış evlərinin saxlanılması məsələsidir. Bu kəndin inkişafında yaranmış və mühüm rol oynayan çoxlu memarlıq abidələri və xalq yaşayış evləri var. Ancaq bu abidələrin bir qismi zaman keçdikcə unudularaq yaddaşlardan silinir,bir qismi isə təbii qüvvələrin və başqa amillərin təsirindən uçub dağıdılaraq xarabalığa çevrilməkdədir. Bunları nəzərə alaraq müəllif bu abidələrin də, mahiyyətini dərindən öyrənmək onları müəyyən etmək və elmi gündəliyə gətirilməsini lazım bilib, mövzunu seçmiş və bu memarlıq abidələrinin araşdırılmasında özünə məqsəd secmişdir.Yəqin ki, yaranmış imkanlardan istifadə edərək müəllif öz elmi işində bu bölgələrin mənşəyini dərindən tədqiq edəcək və bu memarlıq abidələri haqqında sanballı fikirlər söyləyəcək.
**Açar sözlər:** Xınalıq, kənd, məscid, türbə, tarixi binalar, memarlıq abidələri

# ARCHITECTURE OF KHINALIG, HIGH MOUNTAIN VILLAGE OF GUBA CITY

**Balakishiyev Ilgar Movlud–** PhD in architecture, senior lecturer, department of Architectural constructions and restoration of monuments, AzUAC, ilqar-1980@mail.ru

**Abstract**. Of course, the author's reference to this topic in this article, his desire to study the architecture of Khinalig deeply from a scientific point of view, is his close adherence to the land of Guba, the northern gate of our native Azerbaijan, and his boundless love for his country and village. This love probably triggered him to study the history and architectural monuments of Guba and the surrounding northeastern regions, a charming corner of our homeland where his ancestors were born and grew up. Khinalig village has an ancient history. Khinalig amazes visitors at first sight with its beautiful and unique architecture and nature. Today, the most important and difficult problem with the architectural monuments of the village is the preservation of religious monuments as well as houses. There are many architectural monuments and folk dwelling houses that played an important role in the development of this village. However, some of these monuments were forgotten over time, and some were destroyed by natural effects and other factors. Taking into account all the mentioned facts, the author chose the topic and chose the purpose of studying these architectural monuments, as it was necessary to study the essence of these monuments deeply, identify them and bring them into the scientific agenda. By using the created opportunities, the author will probably study the origin of these regions in his scientific work deeply and will give substantial opinions about these architectural monuments.
**Keywords:** Khinalig, village, mosque, tomb, historical buildings, architectural monuments

**Giriş.** Xınalıq kəndi Azərbaycanın şimal– qərb hissəsində rayon mərkəzindən 65 km aralıda yerləşir. Şahdağ,Babadağ,Tufan,dağları kimi yüksək dağ zirvələri arasında qərar tutan,dəniz səviyyəsindən 2300 metr hündürlükdə yerləşən əsrarəngiz Xınalıq kəndi özünəməxsus bir muzeyi xatırladır. Buradakı tarixi memarlıq abidələri, məftunedici rənglər, xətlər və formalar harmoniyasına malik təbiət gözəlliyi dəfələrlə söz və fırça rəssamları tərəfindən tərənnüm edilmişdir. Xınalıq kəndinin qədim tarixi var. Tarixçilərin ehtimalına görə, Xınalıq eramızdan əvvəl salınıb. Xınalıqlıların əcdadları barədə məlumatlara qədim tarixçilər Strabon və Plineyin əsərlərində rast gəlinir.

**Əsas hissə.** Rəvayətlərə görə, bu kəndin sakinləri Nuh peyğəmbərin nəslindəndir. Qudyalçayın dağlıq düzündə yerləşən kənd uzun illər ənənəvi inşaat üsullarını,folklor və etnoqrafik ənənələrini bugünədək qoruyub saxlayıb. Özünün ilkin memarlıq simasını, eləcə də köhnə məişət tərzi ilə səsləşən ekzotik əlamətlərini saxlayan bu yaşayış məskəni sivilizasiyanın təsirinə çox az məruz qalan canlı tarixdir. **Keçmişini qoruyub yaşadan və saxlayan** bu qədim məkanda diqqəti gözəl təbiət mənzərələri, pilləvari və yarusvari tikililərin sərt əzəməti cəlb edir. Maraqlıdır ki, burada bir evin damı,ondan yüksəkdə yerləşən digər evin meydançasıdır. Kənddə dağlar dik olduğundan evlər çox sıx yerləşdirilib. Evlərin hamısı qədimdir,onların 200- 300 il yaşı var. Kəndin inşaat təcrübəsində yerli tikinti materialları- qaya və çay daşlarından, divarların tikilməsində isə samandan və gil məhlulundan geniş istifadə edilib. Burada daha qədim tikililər və çoxlu qədim xarabalıqlar da var. Müasir dövrdə də kənd öz arxitektura üslubunu itirməyib, yeni inşa edilən evlər ümumi görünüşlə tamamlanan ansambl təşkil edir.

Xınalıq dini-tarixi abidələri olan məscid və türbələrlə, təbiət abidələri ilə, qədim yaşayış yerləri olan arxeoloji qazıntı yerləri ilə çox zəngindir. Kənddə 7 məhəllə, 6 məscid, 5 türbə, 7 təbiət abidəsi var. Burada olan abidələrin hər biri tikilmə tarixi ilə diqqəti cəlb edir. Bir sözlə, özünün ilkin memarlıq simasını, eləcə də köhnə məişət tərzi ilə səsləşən ekzotik əlamətləri saxlayan Xınalıqla tanış olan hər kəs bu nəticəyə gəlir ki, bu diyar tam mənası ilə bəşər sivilizasiyasının dağıdıcı qüvvəsinə məruz qalmayan canlı tarixdir. Kəndin adı haqqında da maraqlı əhvalatlar danışılır. "Xınalıq" sözünün açımı haqqında qənaət maraqlıdır. Bildirilir ki, "Xınalıq" adının onun tarixi ilə əlaqəsi yoxdur. Kəndə Xınalıq adı onun qarşısında yerləşən dağın günəş çıxanda verdiyi rəngə uyğun olaraq verilib.Alban tarixçisi Musa Kalankatlının "Alban tarixi" əsərində isə Albaniyanın şimal-qərbində bir əyalət Xeni adlandırılır. Tədqiqatçıların fikrincə, Xınalıq kəndinin adı həmin əyalətin adını əks etdirir .

Xınalıq kəndinin dağın zirvəsində, əlçatmaz yerdə yerləşməsi strateji məqsədlərlə də izah oluna bilər. Kəndə gedən yolların keçilməz olması, cığırların sıldırım yamacda salınması kəndin müdafiəsini asanlaşdırırdı. Vaxtilə köçəri tayfaların hücumlarından müdafiə üçün Xınalıqda qala divarlarından və ayrıca döyüş bürclərindən ibarət olan müdafiə sistemi təşkil edilmişdi. Qeyd edək ki, Xınalığın ilk müdafiə sistemi məhz qala divarlarından və bürclərdən ibarət olub. Divarlar mühafizə olunmasa da, dağıdılmış piramidaya bənzər bürclər onların varlığından xəbər verir. Buradakı yaşayış evləri də xüsusi maraq doğurur. Onlar bir otaqlı evlərdən və həyətyanı sahəsi olan evlərdən ibarətdir. Xınalığın memarlıq abidələri sırasında məscidlər də özünəməxsus yer tutur. Məlumdur ki, İslamın qəbul edilməsindən sonra Azərbaycanın hər yerində məscid, mədrəsə, türbə və başqa dini tikililərin inşasına başlanılıb. Lakin Xınalıq sakinləri İslamı qəbul etməklə yanaşı, müsəlmanlığa qədərki ənənəvi təlim və mərasimlərə də riayət edirlər.

Bu gün də əhali arasında oda sitayiş və dağlarda müqəddəs yerləri ziyarət etmək ənənəsi qalmaqdadır. Məsələn, Xınalıq kəndinin 5- 6 kilometrliyində Qızıl qaya dağı yaxınlığında yerləşən və Xınalıq dilində “Ca yuvr ciqa” (od yeri) adlanan təbii yanar qazın çıxdığı ərazi yerli əhali tərəfindən müqəddəs ocaq kimi qəbul edilən təbii məbədlərdən biridir. Sakinlərin dediyinə görə, adətən, ailə qurmaq, övlad sahibi olmaq diləyilə Xınalıq atəşgahına gələn yerli əhali qurbanlıq heyvanı kənddə kəsdirərək onun ətini bu müqəddəs ocağa gətirib yerdən çıxan alov üzərində bişirirdilər və ziyarətə gələnlərə nəzir kimi paylayırdılar. Sakinlərin bir qismi bildirir ki, atəşgahın atəşpərəstlik etiqadı ilə əlaqələndirilməsi düzgün deyil.Çünki atəşpərəstlikdə odun ailə və ocaq qoruyucusu kimi funksiyası yoxdur.Xınalığın tarixi dini abidələri məscid və türbələri olan ibadət tikililərinin memarlığı özünəməxsusdur [1,2].

*Əbu Müslüm cümə məscidi.* Kəndin ən yüksək yerində Cümə məscidi yerləşir. Cümə məscidi öz ölçülərinə görə Xınalığın dini- ibadət tikililərindən nisbətən böyüyü sayılır. Əbu Müslümün adını daşıyan məscidin tarixi təx. VIII- IX əsrlərə aid edilir.Əldə edilmiş məlumata görə Dərbənd hakimi Hişamın qardaşı Əbu Müslüm VIII əsrdə bütün Dağıstan və indiki Azərbaycanın şimal- şərq ərazisindəki kəndlərə islam dinini yaymış və məscidlər tikmişdir. Xınalıqda ilk məscid o vaxt tikilmişdir.Əbu- Müslüm cümə məscidinin divarında hörülmüş daşlarda olan heroqlofik yazılar tədqiqatçılar tərəfindən araşdırılıb və onların Alban əlifbasına aid olduğu ehtimal edilir. Əbu-Müslüm cümə məscidinin üstü torpaq dam olub. 1988- 1989- cu illərdə torpaq dam dəmir damla əvəz olunub. Məscid həcminə görə kəndin ümumi fəza kompazisiyasında dominant yer tutur. Ölçülərinə görə böyük olan (20x20 m) bu məscid binası daxildən dörd cərgə sütunla tikilmişdir (şək. 1).




**Şəkil 1.** Quba rayonu, Xınalıq kəndində Cümə məscidi [2]

Məscidin divarları yarımtəmiz yonulmuş müxtəlif böyüklükdə qaya və çay daşlarından, hörülmüşdür. Məscidi binası qərb və cənub tərəflərdən hündür dayaq divarları ilə möhkəmləndirilmişdir. Son vaxtlara qədər məscid yarı uçulmuş vəziyyətdə idi. 1968 -ci ildə yerli usatalar tərəfindən binada təmir işləri aparılmışdır. Bunun nəticəsində məscidin qərb və şərq divarları binanın içərisinə doğru üç metr sürüşdürülmüşdür. Beləliklə məscidin ibadət zalının sahəsi kifayət qədər kiçilmişdir. Bu sahənin hesabına qərb tərəfdən örtülü eyvan, şərq tərəfdən isə açıq terras (səki) yaranmışdır.Rekonstruksiya olunana qədər məscidin pəncərərləri olmamış və yastı torpaq dam örtüyündəki işıq– tüstü deşiyindən işıqlandırılmışdır. İbadət zalının döşəməsi gildən olmuş və bura yerli istehsal olan toxuma xalılarla döşədilmişdir.

Cümə məscidinin və ənənəvi yaşayış evlərinin binaları deməк olar ki, həm həcmi– fəza, həm də konstruksiya cəhətdən eyni yolla həll edilmişdir. Fərq ancaq məscidin daha böyük ölçüdə və onda mehrabın olmasındadır. Sakinlər arasında “Pir Comərd və ya Əbu Müslüm” məscidi kəndin ən qədim və əsas piri sayılır. Ümumiyyətlə, Xınalıq əhalisi kənddə mövcud olan bütün məscidləri pir adlandırır.

Məscidlər evə bənzəyir və minarələri yoxdur. Həcminə görə böyük olmayan birmərtəbəli məscid binasında xalq yaşayış memarlığının bir çox cizgiləri əks olunmuşdur. Bu hər şeydən əvvəl bir zallı bütöv üzərində işıq və tüstü üçün baca olan yastı örtüklü otaqdır. Xınalığın ibadət tikililərinin tikinti praktikasında minarələr öz tətbiqini tapmamışdır [3,4].

*Pirə Comərd türbə- məscid.* Pirə- Comərd türbə məscidinin tarixi təx. XII əsrin sonlarına təsadüf edilir ki, bu türbə- məscid Əbu-Müslümdən xeyli cavandır. Həmin binadakı türbə islamdan qabaq olub, alban Xınalıqlıların atəşpərəst dininə aid ayinlərin keçirdiyi məbəd kimi yaddaşlarda qalıb. İslam dini qəbul ediləndən sonra atəşpərəst məbədi diqqətdən kənarda qalmış, daha sonra məbəd Comərd tərəfindən bərpa edilmiş və ona bitişik məscid tikilmişdir.Comərdin qəbri də tikilinin daxilindədir.Xınalıqlılar həmin hissəyə zülmətxana (qaranlıq yer) deyirlər.Ona görə ki, kiçik sərdabəyə işığın düşməsi üçün pəncərə və baca qoyulmayıb. Bu qapalı sərdabəyə işığın düşməsi, yaxud qəbirin açıqda olması ruhun narahat olmasına və allah tərəfindən onu narahat edən insanları cəzalandıracağına inanırdılar. Məscid planda xarici ölçüləri 9.4 x 6.1 m olan düzbucaqlı şəklindədir (şək.2).




**Şəkil 2.** Quba rayonu,Xınalıq kəndində Pir- Comərd məscidi [4]

Şərqə yönəlmiş baş fasad sadə yaradılmışdır. Fasadın rəvan səthində giriş dəliyi və iki böyük olmayan kvadrat pəncərə açılmışdır. Məscidin interyeri çox sadə həll olunmuşdur. Adətən interyerin bəzədilməsində mehrab əsas rol oynayır. Ancaq oxvari yarımgümbəzlə bitən taxça mehrab da çox xəsisliklə düzəldilmişdir. Məscidin üfüqi həcmi qüllənin şaquliliyi ilə təzadlaşaraq baxımlı fəza kompazisiyası yaradır. Hal-hazırda Pirə-Comərd türbə məscidi tam fəaliyyət göstərir. Türbə- məscidin üstü torpaq dam olub. Yerli əhalinin söylədiyinə görə, Xınalıq əhalisi İslamı ilk dəfə məhz Pir Comərddə qəbul ediblər və Əbu Müslüm bu kənddə İslamın banisi olub.Digər ehtimala görə, bu abidənin yerində Günəş məbədi yerləşmişdi və ərəblər kəndi tutduqdan sonra bu qədim ibadətgahı müsəlmanlaşdırıblar. Məlumdur ki, şumerlər də məbədlərini yüksəkliklərdə, dağın təpəsində inşa edirdilər. Üzərində balıqqulağı olan daşlar da hər halda, qədim dini təsəvvürlərin izlərini daşıyır. Beləliklə, bu qədim pir inancının nümunəsində bir daha aydın olur ki, xalq İslam dini ilə bərabər öz əvvəlki inanc sistemini də qoruyub- saxlamağa çalışaraq, özündən əvvəl yaranmış dini ənənələri birləşdirərək spesifik bir sintez yaradıb.

*Xıdır Nəbi türbə- məscid.* Xıdır- Nəbi türbə- məscidi XVI əsrə aiddir. Xıdır Nəbi islam dininin ruhanisi olaraq evdə mədrəsə açaraq dini dərs keçmişdir. Ərəb dilini bilmişdir. Müdrik şəxs olaraq ruhanilik ilə bərabər təbiblik etmişdir. Dişlərin çıxarılması və müalicəsi üçün bizə gəlib çatmayan vasitələrlə, yəni Xınalıq ərazisində bitən bitki və otlardan dərman düzəldərək diş ağrılarını kəsmiş, dişlərin iltihabını çıxarmışdır. Xıdır Nəbi vəfat etdikdən sonra onu kəndin yaxın yerində, hündür təpənin üstündə basdırmışlar. Sonradan onun dərs keçdiyi tələbələr qəbrin üstünü tikili vasitəsilə türbəyə çevirmişlər. Türbənin içərisində təkcə Xıdır Nəbinin qəbri var, ətrafda heç bir qəbir yoxdur. Uzun dövrlər ərzində Xıdır Nəbi türbəsi güclü inanc yeri olmuş və türbəyə bitişik məhəllə məscid tikilmişdir. Xıdır Nəbini xalq "diş qəbri", "mıx piri" adlandıraraq dişlərin ağrısını kəsmək üçün türbədəki tək ağacın üstünə at mıxını vuraraq nəzir verirlər. Xıdır Nəbi türbə-məscid əsrlər boyu olduğu kimi hal-hazırda da inanc yeridir. Bu türbə-məscid Yelqovan məhəlləsində yerləşir.

*İsrafil Baba türbə- məscid.* İsrafil Baba türbə-məscidin XVIII əsrə aid etmək olar. Bu türbə-məscid Çuxur məhlədə yerləşir, Xınalıqlıların güclü inam yerlərindən biridir. İsrafil Baba ərəb dilini bilərək islam dini ruhanisi olmuşdur. Evdə mədrəsə açaraq dini dərs keçmişdir. Şərq təbabətini bilmiş, Tibbnamələrdən istifadə etmişdir. İsrafil Baba Xınalıq ərazisində bitən bitkilərdən dərmanlar düzəldərək insanlarda olan zahiri yaraları müalicə etmişdir. İsrafil Baba vəfat etdikdən sonra onun qəbrinin üstünü tağvarı, ovalşəkilli formada tikərək türbəyə çevirmişlər. Zahiri yaraları olan insanlar onun qəbrindən torpaq götürərək yaralarına sürtərək şəfa tapırlar. Sonralar türbəyə bitişik məhəlli məscid tikilərək İsrafil Baba məscidi adlandırılmışdır. Türbənin ətrafında kiçik qəbristanlıq vardır.

*Şeyx Şalbuz türbə- məscidi.* Şeyx Şalbuz türbə- məscidi XVII əsrə aiddir. Bu türbə-məscid Aşağı məhəllədə yerləşir. Şeyx Şalbuz islam dinini mükəmməl bilmişdir. Həmçinin Ərəb dilini bilmişdir. Şeyx mədrəsə açmış, bir çox tələbə- molla yetişdirmişdir. Şeyx Şalbuzda bir çox insanlara məxsus olmayan fenomenliyi olmuşdur. Onun haqqında xalq arasında çoxlu rəvayət söylənmişdir, bu da Şeyxdə həqiqətən fenomenlik olduğuna əsas verir.İnsanların fikrini oxuyaraq problemləri həll etmək üçün dua yazırmış,

əlindəki biocərəyanla müalicə etmiş, müdrik məsləhətlər vermişdir. Hal-hazırda məscid-türbəyə Şeyx Şalbuz məscidi adlanır və tam fəaliyyət göstərir. Məscidin fəza kompazisiyası mürəkkəb deyildir. Formasına görə planda məscid düzbucaq şəklinə malikdir.Məscidin baş otağı və vestubül qərbə doğru orientasiya olunmuşdur. Şərq tərəfdən ibadət zalına Şeyx Şalbuz babanın və onun oğlunun dəfn edilmiş olduğu otaq birləşir (şək.3).

Dindarlar vestibüldə (dəhlizdə) ayaqqabılarını çıxarır və ibadət etmək üçün əsas otağa yollanırdılar.Məscidin interyerinin divarları suvanmış və ağardılmışdır. Cənub divarında bucaqları əyilmiş düzbucaqlı taxça– mehrab vardır. Qil döşəməyə xalılar döşənmişdir. Yastı da örtüyünnün üzərinə isə torpaq tökülmüşdür. Dam örtüyünün tirləri taxta sütunlara söykənir. Rekonstrulsiyadan sonra sütunlara ehtiyac qalmamışdır. Yalnız dolğun kəsmə naxışlarla bəzədilmiş bir tiraltı, yerli incəsənətin nümunəsi kimi saxlanılmışdır. Cənub tərəfdə yan fasadda emal olunmuş çay daşından hörülmüş pilləkan məscidin damına qalxmaq üçün nəzərdə tutulub. Bu pilləkənlə dama qalxaraq azançılar dindarlar ibadətə çağırırdılar.

Əsas tikinti materialı kimi Xınalığın tarixi- dini (məscid və türbələrin) binaların divarlarının əksər hissəsi doğranmış və azacıq emal olunmuş yerli çaydaşlarından hörülürdü. Müxtəlif rəng çalarlı daş bloklardan hörülmüş bu divarlar bütün bu dini tikililərə gözəgəlimlilik verir. Qeyd etmək lazımdır ki, Xınalığın tikinti texnikasında da yerli inşaat materialları həlledici rol oynamışdır.Onlar memarlıq formalarının yaradılmasında və inkişafında müəyyən izlər qoymuşlar.




**Şəkil 3.** Quba rayonu, Xınalıq kəndində Şeyx Şalbuz məscid- türbə [4]

**Nəticə.** Dəyərli tarixi-memarlıq irsi saxlanmış Xınalıq kəndini, ümumi şəkildə aşağıdakı kimi ifadə etmək olar: Tiklilərin ənənəvi çay daşlarından tikilərək bir– birinə sıx birləşməsi belə təəsurat yaradır ki,sanki bu kənd qayadan yonulmuşdur. Gələcək nəsillər üçün bu kəndin özünəməxsus tarixi-xatirə və tarixi-mədəni abidələrini qoruyub saxlamaq; onların tarixi, memarlıq-bədii dəyərini üzə çıxarmaq; kəndin etnoqrafik qoruq statusunu qoruyub saxlamaq; bu kəndlə bağlı olan yerlər və binalar, monumental-dekorativ sənət abidələrini və arxitektura üslubunu gözləmək.

Əsas diqqət kəndin planlaşdırma strukturuna, onun tikililərinin xarakterinə və həmcinin Xınalığın tarixi– memarlıq qoruğuna cevrilməsinin vacibliyinə yönəlmişdir.Yüksək dağlıq kəndi Xınalığın yaşayış evlərinin planlaşdırılmasına və formalaşdırılmasına ilk növbədə sosial– iqtisadi və təbii– iqlim şəraiti də təsir göstərmişdir.

**Ədəbiyyat**
1. Кубинсий уезд.- Кавказ, №195, 1900
2.Мехмандарова Г.К Джума мечеть в Кубы- Баку: Элм, 1986
3. Фатуллаев Ш.С. Градостроительное развитие города Кубы в конце XVIII в XIX вв. -Из в. АН Азерб. ССР, 1974
4. Fərzəlibəyli Ş. Quba tarixi. Bakı, 2001

**References**
1. Kubinsij uezd.- Kavkaz, №195, 1900
2.Mekhmandarova G.K Dzhuma mechet' v Kuby- Baku: Elm, 1986
3. Fatullaev Sh.S. Gradostroitel'noe razvitie goroda Kuby v konce XVIII v XIX vv. -Iz v. AH Azerb. SSP, 1974
4. Farzalibeyli Sh. Quba tarixi. Baki, 2001

Redaksiyaya daxil olma /Received 25.01.2022
Çapa qəbul olunma /Accepted for publication 25.02.2022

*Məqaləyə istinad: Balakişiyev İ.M. Quba şəhərinin yüksək dağlıq kəndi olan Xınalığın memarlığı. Elmi Əsərlər jurnalı AzMİU, s. 20-25, N1, 2022*
*For citation: Balakishiyev I.M. Architecture of Khinalig, high mountain village of Guba city. Journal of Scientific Works/ Elmi eserler. AzUAC, p. 20-25, N1, 2022*